## ГЯНДЖА - КАК ЦЕНТР ДРЕВНЕГО КОВРОВОГО ИСКУССТВА

***Расулова Наргиз Айдын кызы***

***Резюме***

Ковроткачество, одно из направлений азербайджанского народного искусства, также является искусством, которое почти стало символом азербайджанского народа. Азербайджанские ковры разделены на 7 школ ковроткачества как области искусство. Это школы Губы, Баку, Ширвана, Гянджи, Газаха, Карабаха, Тебриза.

Гянджинская ковровая школа занимает свое место в развитии ковроткачества в Азербайджане. Раньше все ковры, производимые в Гяндже и ее окрестностях, назывались "Гянджабасар" по имени региона. Несмотря на то, что каждый из них имеет свой особый вид ковра, в Гянджабасаре были следующие центры ковроткачества: Самух, Фахрали, Зейва, Чайли, Алюшаги, Сарису, Моллабази, Балчили, Гараджамирли, Шамкир, Гедабек.

## GANJA - AS THE CENTER OF ANCIENT CARPET ART

***Rasulova Nargiz Aydin***

***Summary***

Carpet weaving, one of the branches of Azerbaijani folk art, is also an art that has almost become a symbol of the Azerbaijani people. Azerbaijani carpets are divided into 7 carpet - weaving schools as an art field. These are Guba, Baku, Shirvan, Ganja, Gazakh, Karabakh, Tabriz schools.

Ganja carpet school has its place in the development of carpet weaving in Azerbaijan. Earlier, all carpets produced in and around Ganja were called "Ganjabasar" after the region. Despite the fact that each of them has its own special type of carpet, Ganjabasar included the following carpet-weaving centers: Samukh, Fakhrali, Zeyva, Chayli, Alyushagi, Sarisu, Mollabazi, Balchili, Garajamirli, Shamkir, Gadabay.

***Rəyçi: t.ü.f.d. Məmmədova Yeganə***
***Ümumi tarix kafedrasının 08 dekabr 2021-ci il tarixli icalasın 04 saylı protokolu***
***Daxil olma tarixi 09 sentyabr 2021-ci il***

**UOT:94(479.24)**

## TERROR VƏ DAVAMLI İNKİŞAF

***Dos. Yusifov Fuad Yusif oğlu, Dos.əv. Tağıyeva Mehriban İmran qızı***
***Azərbaycan Texnologiya Universiteti***
***tagiyevamehriban@mail.ru***

**Xülasə:** *Məqalədə terror və terrorizmin mənşəyi və təkamülü təhlil edilir. Əsrlər boyu bu hadisələr ayrı-ayrı dövlət tərəfindən təşkil edilmiş siyasi hökmranlığa nail olmaq üçün ən radikal yolları təmsil etmişdir. Onların təkamülündə xüsusi bir mərhələ Böyük Fransız İnqilabı (1789 - 1794) idi, bu dövrdə terror inqilabi məqsədəuyğunluq prinsipi olaraq qurumsallaşdı. Sonradan bu, XX əsrin ən böyük ictimai-siyasi kataklizmləri zamanı müəyyən sosial qruplara və xalqlara qarşı repressiyaların əsaslandırıcısı oldu. Siyasi hökmranlığa nail olmaq üçün təsirli bir vasitə olaraq, terror və terrorizm dünya birliyinin aparıcı ölkələri tərəfindən də müstəmləkəçilik siyasətini həyata keçirərkən istifadə edilir. Müasir siyasi praktikada terror və terrorizm qlobal problem xarakteri alıb və həm ayrı -ayrı dövlətlər, həm də beynəlxalq terror təşkilatları tərəfindən hökmranlığını təsdiq etmək prosesində istifadə olunur.*

**Açar sözlər:** terror, terrorizm, terror aktı, dövlət, beynəlxalq terrorizm
**Ключевые слова:** террор, терроризм, террористический акт, государство, международный терроризм
**Keywords:** terror, terrorism, terror act, state, international terrorism

Müasir dövrdə qloballaşma və qlobal inkişafın təsiri ilə terror və terror aktlarının təsiri və yayılması bütün dünyada artmaqdadır. Terror son dövrlərin ən qlobal probleminə çevrilib. Terror davam etdikcə dünyaça nizamına təhlükə yaradır. XXI əsrin əvvəllərində artıq 70-dən çox dövlətin fəaliyyətində terrordan istifadə edən minlərlə qrup və təşkilatlar mövcud idi. Terrorizm və ekstremizm dövlətin fundamental əsasları olan siyasi, iqtisadi və mənəvi əsaslara əhəmiyyətli dərəcədə təsir göstərir, yenidən bərpası bəzən mümkün olmayan maddi və mənəvi dəyərləri məhv edir, dövlətlər arasında nifaq salır, müharibələrə, sosial və milli qruplar arasında inamsızlığın və nifrətin yaranmasına səbəb olur, əhalinin psixoloji durumunda dəyişikliklər yaradır və bir çox insanın həyatına son qoyur.

Son illərdə terror fəaliyyətlərinin miqyası genişlənir, xarakteri mürəkkəbləşir, terror aktlarının sayı artır, formaları, obyektləri və məqsədləri tamamilə dəyişir.

“Terror” sözünün mənası qorxu, dəhşət deməkdir. Terroristlərin hədəflərinə nail olmaq üçün əsas vasitələrindən biri qorxu mühiti yaratmaqdır. Məqsədləri terror hadisəsi törədərək siyasi, ictimai, dini nümayəndələri qorxutmaqdır.

Terrorun kökləri əsrlər əvvələ gedir. Terrorun öz tarixi var. Bu tarixi bilmədən müasir terrorizmi anlamaq mümkün deyil. Terror və terrorizm anlayışları hələ ən qədim zamanlardan bəşəriyyətə məlumdur. Qədim Şərqdə, yunan və roma respublikalarında terror aktları mövcud olmuşdur. Hətta qədim mənbələrə görə 2,5 min il bundan əvvəl Misir ərazisində 9 ay ərzində 10 terror aksiyası həyata keçirilmişdir. Musa və Harun tərəfindən icra edilən bu aksiyalar “İsrail övladlarının” Misir Fironunun köləliyindən azad edilməsi məqsədi ilə yerinə yetirilib. Bu aksiyaların onlar tərəfindən ədaləti təmin etmək üçün keçirildiyi qeyd edilsə də, digər tərəfdən, Misirin digər sakinləri böyük qurbanlar vermişdilər. Bu hadisələr tarixə Misir edamları kimi daxil olmuşdur. Bu terror aktları yəhudi etnosunu köləlikdə saxlayan Misir Fironunu qorxutmaq üçün edilmişdi.

Qədim dünya tarixi, xüsusilə Roma dövrü, terrordan istifadə nümunələrilə doludur. Pompey, Krass, Sezar və digər diktatorlar terrordan istifadə edərək, nəinki düşmənləri məhv etmiş, həm də onları qorxudaraq planı tərk etməyə məcbur etmişlər. Qeyd edək ki, qədim dünyada terrorun ən məşhur qurbanı da elə məhz Qay Yuli Sezar olmuşdur.

Tarixi mənbələr Fələstin ərazisində yəhudi sikarii sektasının mövcud olduğunu göstərir. Bu sekta e.ə. I əsrdə fəaliyyət göstərmişdir. Romalıları və onlar üçün təəssüf hissi keçirən yəhudiləri öldürərək və mülkiyyətlərini məhv edərək , sikariilər öz torpaqlarını Roma imperiyasının hakimiyyətindən xilas etməyə çalışırdılar. Lakin Roma İmperiyasının bu qiyamlara qarşı cavabı çox sərt və effektiv olur: imperator Tit qiyamçıları qana qəltan edir. Sikariilər sonacan mübarizə aparırlar, Yerusəlimin süqutundan daha 3 il sonra da onlar Masad qalasını mühasirədə saxlamış, məğlubiyyətləri dəqiq olduqda isə bir çoxu özlərinə qəsd etmişlər [1, s.6]. Bununla belə, sikariilər öz ölümlərini və Allah yolunda əziyyət çəkən insanların ölümünü haqlı çıxarırdılar, onlar dövləti qəbul etmirdilər.

Oxşar taktika hazırki dövr Yaxın Şərqdə terror qruplaşmalarında müşahidə olunur. Bununla belə, özlərini öldürən terrorçular qismində terror indiki dövrdə də cihadizm kimi qəbul edilir və islam ideallarının təntənəsi üçün özünü qurbanvermə olaraq görülür.

Erkən xristian dövlətlərində də terrordan istifadə olunmuşdur. Xristian dini 451-ci ildə Roma İmperiyasında dövlət dini elan olunmuşdur. Daha sonra xristianların bütpərəstlərə qarşı olan təqibləri bunun sübutudur. Sonralar isə bu öz əksini xaç yürüşlərində tapır, belə ki, bu dövr ölüm təhlükəsi altında çoxsaylı xalqlar xristian etiqadına müraciət etməli olurlar. Lakin terror kateqoriyasına daha çox inkvizisiyalar daxil olurdu. Belə ki, tarixçilərin

hesablamalarına görə, XV əsrdən XIX əsrədək avropada inkvizisiya nəticəsində 10-12 milyonadək adam məhv edilmişdir [2, s.10]. Həmçinin bu dövrdə gizli təşkilatlar da geniş inkişaf tapmışlar. Bu təşkilatlar feodallar tərəfindən idarə olunur və siyasi mübarizə kimi öz rəqiblərinin öldürülməsində istifadə edirdilər. Belə bir təşkilatın ən bariz nümunəsi assassinlərdir. Bu sektant təşkilat və yaxud neoismailist-nizaristlər ordeni XI əsrin sonunda İranda Alamut sarayında meydana gəlmişdi. Təşkilatın təsisçisi Hasan ibn Sabbah, terroru böyük siyasi effekt verən yaxşı düşünülmüş strategiyaya çevirmişdir.

Bu fəaliyyət çərçivəsində assassinlər Suriyaya qaçışlar təşkil edir, prefektləri, qubernator və xəlifələri öldürürdülər. Silah qismində assassinlər yalnız xəncərdən istifadə edirdilər (ayin silahı). Terror aksiyalarının həyata keçirilməsi üçün assassinlər yaxşı təhsilləndirilmiş və məsuliyyətli, Hasan ibn Sabbahın bir əmri ilə ölümə belə hazır olan “fədai”lərdən istifadə edirdilər. Bir yerə toplanma və ruhlandırma üçün dini doqmalar, həmçinin narkotiklərdən də istifadə olunmuşdur. Qeyd edilməlidir ki, xaşaşinlərin metodu- öldürəcək şəxsin narkotik vasitələrlə hazırlanması indiki gündə də bir sıra islam ekstremist təşkilatlar tərəfindən istifadə edilir. Orta əsrlərdə oxşar metodlar yalnız İranda deyil, Yaxın Şərqdə, Hindistanda, Çində də dini sektalar və təşkilatlar tərəfindən istifadə edilirdi. Beləliklə, sikariiləri, fədailəri, assassinləri və digər təşkilatları daimi əks və seperatist terrorun sələfi kimi hesab edə bilərik.

Bundan əlavə tarixdə Varfolomey gecəsi kimi terror hadisələri də olmuşdur. Protestantlarla katoliklər arasında fikirayrılığı teoloji-elmi müstəvidən uzaqlaşaraq, hərbi toqquşmalara, qanlı müharibələrə gətirib çıxarmışdır. Məzhəb ayrıseçkiliyi cəmiyyətdə təbəqə, qohum, dost, həmvətən anlayışını ortadan qaldırmış, hamı bir-birini etiqadına görə qiymətləndirməyə başlamışdır. Nəticədə, 23 avqust 1572-ci ildə Parisdə əvvəlcədən planlaşdırılmış, müqavimətə gücü çatmayan günahsız insanların kütləvi halda qətlə yetirilməsi hadisəsi-terror baş vermişdir [3].

Terrorizmin inkişafında Böyük Fransa İnqilabı xüsusi mərhələ təşkil edir. Onun əhəmiyyəti ondan ibarətdir ki, o, siyasi hakimiyyətin ələ keçirilməsi və saxlanması üçün ən mühüm amil kimi institutlaşmışdır. 1792-ci ildə Fransada iki başlıca siyasi qruplaşmanın - jirondistlər və yakobinçilərin birləşməsi kral XVI Lüdoviqin nazirlər kabinetini qorxutmaq, dəhşətə gətirmək idi. Həmin dövrdə terrordan fransız inqilabı ideolooqları tərəfindən kütləvi xalqın ayağa qalxması və despotik rejimin devrilməsi üçün istifadə edilirdi [4, s.54-60]. Belə ki, ölkədə hakimiyyətin ələ keçirilməsindən sonra, onlar heç də terrordan əl çəkməmiş, əksinə, artıq terroru öz vətəndaşlarına qarşı istifadə etməyə başlamışlar. Beləliklə, terrorun əsas prinsipi yarandı-məhv olunmamışları qorxutmaq üçün, günahsızları məhv etmək. Elə bu dövrdə də inqilabın xüsusi kəşfi-gilyotin kəşf olunur. Hətta bir çox mütəxəssislərin fikrincə, məhz “terror” anlayışı elə Fransa İnqilabı dövründə yaranmışdır.

XIX əsrdə Avropada əsasən inqilabi, cinayət və nasionalist xarakterli terror təşkilatları yaranmağa başladı.

1877-1878-ci illərdəki türk-rus müharibəsi rum, serb və bolqarların dövlət olaraq ortaya çıxması ilə nəticələndi. Bu, ermənilərin də Anadoluda özlərinə bir dövlət qurmaq arzusuna səbəb oldu. Elə ona görə də 1877-ci ildə İsveçrədə qafqazlı erməni tələbələri osmanlı ermənilərinin “qurtarılması”nı hədəfə alan 10 Hnçak (can səsi) komitəsini yaratdılar. Az müddət içərisində Türkiyənin bütün iri şəhərlərində, o cümlədən İstanbulda hnçakın şöbələri yaradıldı. Anadoluda erməni dövləti yaratmaq ideyası daha da fəallaşır. Bu işdə 1890-cı ildə Tiflisdə yaranan qəddar millətçi partiya Daşnaksütyun mühüm rol oynayır. Əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında “Böyük Ermənistan” dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən “Daşnaksütyun” türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır.

1917-ci ildə Rusiyada Böyük Oktyabr Sosialist inqilabından sonra bolşevik diktaturasının təsdiqi baş verdi. Əslində terrorizmin yaranması inqilabdan çox əvvəl

Rusiyada yaranmışdı. Böyük Oktyabr Sosialist inqilabından sonra terror istənilən narazılıq dalğasının ram edilməsinə və tənqid dalğasına qarşı dövlət siyasətininin bir hissəsinə çevrildi.

Terror sovet hakimiyyətinin düşmənləri tərəfindən "ağ terror" adlandırılsada, bolşeviklər tərəfindən "qırmızı terror" həyata keçirildi. Akademik Ziya Bünyadov "Qırmızı terror" kitabında qeyd edir: "Sovet hakimiyyəti Leninin "Yaşasın müstəqil Azərbaycan!" teleqramına əsasən demokratik hökümət tərəfindən əsası qoyulmuş Azərbaycan xalqının tərəqqisinə və çiçəklənməsinə kömək vəd etdiyi halda, hökmranlığının elə ikinci günündən - 1920-ci il aprelin 29-dan Azərbaycanın çiçəklənməsi naminə işləyə biləcək hamını aradan götürmək xəttini həyata keçirməyə başladı"[5, s.5]. Bu "qırmızı terror" maşınının Azərbaycanda işə düşdüyü tarix idi.

Bu terror siyasətinin qurbanlarının ümumi sayı, tədqiqatçıların hesablamalarına əsasən 1,5 milyon nəfər oldu [6, s.5]. Qırmızı terror siyasətinin məntiqi davamı 1930-1950-ci illərin repressiyaları olmuşdur. Azərbaycan xalqının həqiqi faciəsi isə 1936-cı ildən başlandı. Xalq əleyhinə, xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri 1937-1938-ci illərdə daha da amansızlaşmışdı, hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi görünməmiş vəhşiliklə Sumbatovun, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Avanesyanın və onların Atakişiyev kimi nökərlərinin və qeyrilərinin əlilə təxminən 70-80 min Azərbaycan ziyalı nümayəndəsi – alim, yazıçı, artist, müəllim, gənc, din xadimi, Sovet və patriya əməkdaşı, hərbçi – bir sözlə, bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri bir ucdan məhv edildilər [5, s.6]. Ölümə və sürgünə məhkum edilən bütün ziyalılarımız antisovet, əksinqilabi üsyançılıqda, azərbaycanı SSRİ-dən qoparıb müstəqil ölkəyə çevirməkdə, Beriya, Bağırovun və partiya və hökumət üzvlərinin əleyhinə sui-qəsd hazırlamaqda təqsirləndirilirdilər [5, s.297].

XX əsrin sonunda terrorizm xüsusi əhəmiyyət qazanır. Artıq terrorizm öz xarakterinə görə çoxüzlü səciyyə qazanır. Terror artıq sadəcə ekstremist təşkilatlar, cinayətkar fərdlər tərəfindən deyil, həm də, totalitar dövlətlər və onların xüsusi səlahiyyətli qüvvələri tərəfindən də həyata keçirilir.

"Daşnaksütyun" partiyası tərəfindən yaradılan bir sıra terror qrupları mövcuddur: 1973-cü ildə fəaliyyətə başlamış "Erməni "soyqırımının" intiqamçıları" qrupu 1980-82-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirib; Daşnakların hazırda bu istiqamətdə fəaliyyəti davam edir.

**"Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" (ASALA):** 1975-ci ildə yaradılan təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaqdır. Bu təşkilat əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti təşkilatın qurucularından olan Akop Akopyan öz üzərinə götürmüşdür. Livanda 1980-ci ilin aprelində ASALA birgə terror aksiyalarının keçirilməsinə dair PKK ilə razılığa gəlmiş və bu niyyətlərini rəsmiləşdirmişlər. Beyrut şəhərində 28.08.1993-cü ildə açıqlanan bəyanatında ASALA "pantürkist neft borusu" (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdir.

Dünyada erməni terror təşkilatları 100 ildən çoxdur mövcuddur. "Böyük Ermənistan" xülyasının arxasınca düşən bu terror təşkilatlarının fəaliyyəti indi də davam edir.

Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədi ilə Ermənistanın xüsusi xidmət

orqanları hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur. 1989-cu ildən 1994-cü ilin iyul ayına kimi müxtəlif səpgidə 31 terror aktını icra ediblər.

XXI əsrdə də ermənilər azərbaycanlılara qarşı terror aktlarını davam etdiriblər. 27 sentyabr 2020-ci ildə başlayıb 10 noyabr 2020-ci ildə Azərbaycan ordusunun qələbəsi ilə bitən Vətən müharibəsində ermənilər yenə terror aktlarını yerini yetiriblər. Müharibə ərazisindən xeyli uzaqda olan Gəncə, Şəmkir, Heftçala, Mingəçevir, Kürdəmir, Zərdab, Xızı, Oğuz, Qəbələ, Hacıqabul, Biləsuvar, Bərdə, Ağcabədi, Beyləqan şəhər və rayonlarına ballistik raketlər və müxtəlif tip bombalar ataraq hərbi əməliyyatlarda iştirak etməyən dinc sakinlərinə qarşı terror hadisəsi törədiblər. 1997-ci ildə qəbul edilmiş Ottava müqaviləsi və ya Qazma Minalar əleyhinə Konvensiyaya əsasən kaset bombaların istifadəsinin qadağan edilməsinə baxmayaraq Ermənistan ordusu bu bombalardan da dinc əhaliyə qarşı istifadə etmişdi. Bu bomba növü qazma minalar kimi müharibə başa çatdıqdan sonra belə məhv üçün iz buraxır. Azərbaycan Baş Prokurorluğunun Ermənistan ordusu tərəfindən öldürülən mülki şəxslərin bölgələr üzrə statistikasına görə 27 sentyabr döyüşlər başlayan tarixdən bəri Azərbaycanda 87 mülki şəxs həlak olub (onlardan 18-i qadın, 8-i uşaq olub) və 400 nəfər yaralanıb (onlardan 69-u qadın, 32-si uşaq olub). Erməni silahlı qüvvələrinin hədəf aldığı şəhərlərin və yaşayış məntəqələrinin çoxu hərbi əməliyyatların getdiyi bölgədən 50-350 kilomometr uzaqda yerləşmişdir. Təbii ki, həmin ərazilərin vurulması üçün erməni tərəfi uzaq mənzilli raketlərdən istifadə etmişdir [7].

Terror, anarxiya və şiddət XXI əsrin ən böyük bəlasına dönüb. Hazırda dünyada nifrət yayılıb. Bundan da ən çox adi insanlar, qadınlar, uşaqlar və gənclər zərər çəkir. BMT-nin Qadınlar Təşkilatı hesab edir ki, müasir münaqişələrdə itkilərin əksəriyyəti, 90% -dən çoxu qadın və uşaqlar olan mülki şəxslərdir.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir 22 aprel 2016-cı ildə Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda zorakı ekstremizmi, terrorçuluq, işsizlik və digər problemlərin həllinə gənclərin də yaxından cəlb edilməsinin vacibliyini diqqətə çatdıraraq bildirmişdi: “Miqrantlar, qaçqınlar və gənclər terrorçu qruplar tərəfindən zor tətbiq edilməklə səfərbər olunma kimi böyük risk altındadırlar. Bəzi mətbu orqanlar tərəfindən miqrantlar və terrorçular arasında yaradılan eyniləşmə xüsusən də qəbul edən ölkələrdə ksenofobiyanı, stereotipləri, ittihamları artırır və nəinki ədavətə, təcrid olunmaya, qütbləşməyə, o cümlədən radikallaşmaya, zorakılığa və terrorçuluğa yol açır [8].

Terroru ortadan qaldırmaq üçün sosial-iqtisadi inkişafa təkan vermək və terror aktlarının baş verdiyi bölgələrdə demokratik prosesləri açıq şəkildə sürətləndirmək lazımdır. Bunların həyata keçirilməsi üçün radikal düşüncənin kökündə yatan cəhalətin ortadan qaldırılması vacibdir. Terroru və onun qlobal təsirini aradan qaldırmaq, həmçinin demokratiya, plüralizm və insan haqları kimi müsbət insani keyfiyyətləri ayaqda saxlamaq üçün təhsil, təlim və mədəni fəaliyyətlər ən vacib şərtlərdir.

Terrorizm çox sayda insana dəhşətli və davamlı təsir göstərir. Münaqişə zamanı ölümlər yalnız bir elementdir: psixoloji travma, fiziki və iqtisadi infrastrukturun çökməsi, insanların yerini dəyişməsi, yaralanma, xəstəlik, yemək, su və enerji qaynaqlarının olmaması, etibarın və normal insan əlaqələrinin parçalanması və digərləri. Bu təsirlər gələcək nəsillər üzərində davam edə bilər. Terror aktları nəticəsində mülki əhali daha çox təhlükə altında qalır və daha yüksək itkilərə məruz qalır. Baş verən münaqişələr, humanitar böhranlar, insanların zorla didərgin düşməsi terrorçuluq həlqəsini artırır və son onilliklər ərzində əldə edilmiş inkişafı təhlükə altına salır.

Davamlı inkişaf sülh və təhlükəsizlik olmadan həyata keçirilə bilməz. Eyni zamanda, sülh və təhlükəsizlik davamlı inkişaf olmadan riskə məruz qalır.

Terror insanlıq suçudur; doğru ya da yanlış terror yoxdur. Bütün terror fəaliyyətləri kimdən və haradan gəlirsə gəlsin sülhə, dinc həyata, insanlığa vurulan ən böyük zərbədir. Eyni şəkildə hansı məqsədlə olursa olsun, heç bir terror fəaliyyəti qətiyyən qəbul oluna bilməz.

***Ədəbiyyat***


1.А.А.Коробов. О некоторых социально - экономических аспектах международной эскалации терроризма: монография / . – Орел: ОрЮИ МВД России имени В.В. Лукьянова, 2019. – 84 с. http://infokotlas. ru/2013/02/13/proiskhozhdenie-i-priroda-terrorizma/

2.Терроризм в современном мире / под ред. А. П. Кошкина. – Вып. 5. – Москва: ФГБОУ ВО «РЭУ им. Г. В. Плеханова», 2015. – 108 с.

3. https://az.wikipedia.org/wiki/Varfolomey_gec%C9%99si

4.Одесский М. Ф., Фельдман Д. М. Поэтика террора. – М. : РГГУ, 1997. – С. 54–60.

5.Z.Bünyadov. Qırmızı terror. Bakı, Qanun nəşriyyatı, 2017, səh.304

6.Литвин А. Л. Красный и белый террор в России. 1918–1922 гг. – https://avidreaders.ru/download/krasnyy-i-belyy-terror-v-rossii.html?f=fb2

7.Azərbaycan Hüquq Müdafiə Təşkilatları Monitorinq Qrupunun Qarabağ uğrunda gedən Vətən Müharibəsi zamanı dinc əhalinin hədəfə alınması ilə bağlı hesabatı https://cdn.trend.az/2020/11/04/dinc_ehali_atesh_altinda_hesabat_pdf.pdf?v=1604477412

8.BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu. 26 aprel 2016


## ТЕРРОР U УСТОЙЧИВОЕ РАЗВИТИЕ

***Юсифов Фуад Юсиф оглы, Тагиева Мехрибан Имран гызы***

***Резюме***

В статье анализируются происхождение т эволюйия террора и терроризма. На протяжении веков эти события представляли собой наиболее радикальные способы достижения политического господства, организованные отдельными государствами. Особым этапом в их развитии явилась Великая французкая революция (1789-1794), в етот период терроризм был итституционализирован как принцип революционной целесообразности. Позже он стал основой репрессий против определенных социальных групп и народов во время величайших социально-политических катаклизмов XX века. В качестве эффективного инструмента достижения политического господства террор и терроризм также используются ведущими странами мирового сообщество при проведении колониальной политики. В современной политической практике террор и терроризм стали глобальной проблемой и используются как отдельными государствами, так и международными террористическими организациями в процессе утверждения своего господства.

## THE ARTICLE ANALYZES THE ORIGIN AND EVOLUTION OF TERRORISM AND TERRORISM

***Yusifov Fuad Yusif oqlu, Tagiyeva Mehriban Imran gızı***

***Summary***

For centuries, these events have represented the most radical ways to achieve political domination organized by individual states. A special stage in their evolution was the Great French Revolution (1789 - 1794), during which the terrorist revolution was organized as a principle of expediency. Later, it became the basis for repressions against certain social groups and peoples during the greatest socio-political cataclysms of the twentieth century. As an effective tool for achieving political dominance, terrorism and terrorism are also used by the leading countries of the world community in the implementation of colonial policies. In modern political practice, terrorism and terrorism have become a global problem and are used in the process of asserting their dominance by both individual states and international terrorist organizations.

***Rəyçi: dosent Süsənbər Əsəd qızı Məmmədova***

***Azərbaycan Texnologiya Universitetinin İctimai elmlər və multikulturalizm kafedrasının 15 oktyabr 2021-ci il 02 saylı protokolu***

***Daxil olduğu tarix 16 noyabr 2021-ci il***